

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 59 (21.469)

2 aprel 2016-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Aprelin 1-də Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqtonda IV Nüvə Təhlükəsizliyi Sammiti öz işinə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sammitdə iştirak edib.

Nüvə Təhlükəsizliyi Sammiti XXI əsrdə beynəlxalq birlik üçün ciddi təhlükə yaradan nüvə terrorçuluğunun qarşısını almağa həsr olunan yüksək səviyyəli zirvə görüşüdür. Əllidən çox ölkənin dövlət və hökumət başçılarının, müxtəlif beynəlxalq təşkilatların rəhbərlərinin iştirak etdikləri Sammitdə nüvə təhlükəsizliyinin əsas məsələləri, o cümlədən dünyada təhlükəli nüvə materiallarının sayının azaldılması, radioaktiv mənbələrin təhlükəsizliyinin, bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi və digər məsələlər müzakirə olunub.

* * *

Martın 31-də Ağ Evdə Vaşinqtonda keçirilən Nüvə Təhlükəsizliyi Sammitində iştirak edən dövlət və hökumət başçılarının şərəfinə Amerika Birləşmiş Ştatlarının Prezidenti Barak Obamanın adından nahar verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev naharda iştirak edib.

## Fövqəladə hallar atlasının nəşrinə hazırlıq işləri görülür

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2016-cı il martın 17-də “Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası”nın nəşri haqqında Sərəncam imzalayıb. Fövqəladə hallar atlasının nəşr edilməsi muxtar respublikada təbii resurslardan səmərəli istifadə, əhalinin, yaşayış məntəqələrinin, sənaye və kənd təsərrüfatı müəssisələrinin, digər infrastruktur obyektlərinin, o cümlədən qaz kəmərlərinin, kommunikasiya xətlərinin fövqəladə hallardan qorunması, istehsal qüvvələrinin inkişafı məsələlərinin əsaslandırılmış şəkildə həll edilməsi məqsədi daşıyır.

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyindən aldığımız məlumata görə, atlasın işlənilməsi ilə bağlı artıq hazırlıq işlərinə başlanılıb. Nazirlikdə bununla bağlı işçi qrupu yaradılıb, vəzifə bölgüsü aparılıb, atlasın məzmunu və redaksiya heyətinin tədbirlər planının layihəsi hazırlanıb. Hazırda fövqəladə hallar atlasının işlənilməsi üçün Naxçıvan Muxtar Respublikasının sülh və müharibə dövrləri üçün mülki müdafiə planlarının aid bölmələri öyrənilir, təbii fəlakətlərin və texnogen qəzaların tədqiqi ilə bağlı ədəbiyyatlar, elmi işlər və monoqrafiyalar araşdırılır. Eyni zamanda muxtar respublikada yarana biləcək dağıdıcı hadisələrin qarşısının alınması və nəticələrinin aradan qaldırılması işinin təşkili ilə bağlı vahid dövlət sisteminə daxil olan idarəetmə orqanlarının, mülki müdafiə qüvvə və vasitələrinin tərkibi və sayı dəqiqləşdirilir, fövqəladə halların monitorinqi, proqnozlaşdırılması, müşahidə və laboratoriya nəzarəti sistemlərinin fəaliyyət qaydaları öyrənilir. Atlasın hazırlanması üzərində işlər davam etdirilir.

Qeyd edək ki, fövqəladə hallar atlasının nəşri ilə bağlı yaxın günlərdə redaksiya heyətinin ilk iclasının keçirilməsi planlaşdırılır.

## Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada test imtahanlarına başlanılıb

***Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün elan edilmiş müsabiqənin test mərhələsinə start verilib.***



Komissiyadan aldığımız məlumata görə, imtahan başlanmazdan əvvəl slayd vasitəsilə namizədlərə imtahan və test proqramından istifadə qaydaları haqqında ətraflı məlumat verilib. İmtahanda namizədlərə qanunvericilik üzrə 40, dünyagörüşü üzrə 15, informasiya texnologiyaları üzrə 15, məntiqi təfəkkürün yoxlanılması üzrə 30 sual olmaqla, 100 sual təqdim edilib. Sualları cavablandırmaq üçün 2 saat 30 dəqiqə vaxt verilib. Obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanın videoçəkilişi aparılıb. Test imtahanı başa çatdıqdan dərhal sonra namizədlərə cavab kartı və imtahanın nəticəsinə dair arayış təqdim edilib.

Qeyd edək ki, test imtahanlarının nəticələri qrafikə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın internet səhifəsində ***(www.dqmk.nmr.az)*** yerləşdirilib. İmtahanlarda keçid balını toplamış namizədlər müsahibə mərhələsində iştirak etmək hüququ qazanacaqlar. 36 dövlət orqanı üzrə müsabiqəyə çıxarılan 294 vakant vəzifədən 140-nın tutulması üçün 633 namizədin sənəd təqdim etdiyi müsabiqənin test imtahanları aprelin 15-dək davam edəcək.

## Əl işlərinin və ixracyönümlü məhsulların internet kataloqu hazırlanır

***Naxçıvan Muxtar Respublikasında həyata keçirilən məqsədyönlü tədbirlər muxtar respublika iqtisadiyyatının bütün sahələrinə, o cümlədən xarici ticarət münasibətlərinə öz müsbət təsirini göstərib. Belə ki, biznes mühiti və mövcud standartlar daha da müasirləşdirilib, xarici ölkələrlə əməkdaşlıq inkişaf etdirilib. Aparılan uğurlu siyasət nəticəsində məhsul çeşidində və ixracda davamlı olaraq artım müşahidə olunur.***

Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyindən bildiriblər ki, istehsal olunan məhsulların tanıdılması, sərgi-satışının təşkil edilməsi və sahibkarların beynəlxalq təcrübəni mənimsəmələri məqsədilə 2015-ci ildə 21 biznes-forum, sərgi və işgüzar görüşdə muxtar respublikada fəaliyyət göstərən 68 sahibkarlıq subyektinin iştirakı təmin olunub və Naxçıvanda istehsal olunan 12 növdə, 57 çeşiddə məhsul nümayiş etdirilib. 2001-ci ildən ötən dövr ərzində 50 ölkədə 239 tədbir keçirilib.

Görülən işlər nəticəsində muxtar respublikamızın 56 xarici ölkə ilə ticarət əlaqələri qurulub, ötən il 512 milyon 354,5 min ABŞ dolları dəyərində ticarət əməliyyatları aparılıb. Bu ticarət əməliyyatları nəticəsində 414 milyon 420,6 min ABŞ dolları dəyərində mal ixrac edilib, 97 milyon 933,9 min ABŞ dolları dəyərində mal idxal olunub. İdxal-ixrac əməliyyatları üzrə müsbət saldo 316 milyon 486,7 min ABŞ dolları təşkil edib. 2015-ci ildə əvvəlki illə müqayisədə ixrac əməliyyatlarının həcmi 1,4 faiz artıb, idxal əməliyyatlarının həcmi isə 10 faiz azalıb.

Ötən müddət ərzində muxtar respublikada fəaliyyət göstərən sənətkarlar tərəfindən hazırlanmış əl işləri və sənət əsərlərinin sərgi və satışı təşkil edilib, bu istiqamətdə müəssisələrin nəzdində fəaliyyət göstərən dekorativ-tətbiqi sənət, xalçaçılıq, taxta üzərində oyma, şüşə üzərində qravüra və digər sahələr üzrə emalatxanalar yaradılıb.

Ötən il muxtar respublikadan 2 sənətkarın iştirak etdiyi İran İslam Respublikasının Tehran şəhərində keçirilmiş Dördüncü Beynəlxalq Əl İşləri Sərgisində 25 adda əl işi nümayiş etdirilib.

Turistlərin ən çox cəlb edildiyi “Duzdağ”, “Təbriz”, “Qrand” və “Avtovağzal” otellərində əl işlərinin sərgi və satışı təşkil edilib, Əshabi-Kəhf ziyarətgahında, Duzdağ Fizioterapiya Mərkəzində yerli istehsal məhsullarından və əl işlərindən ibarət satış mağazaları fəaliyyət göstərməkdədir.

Nazirlikdən o da bildirilib ki, muxtar respublikada istehsal olunan məhsulların və əl işlərinin respublikada və xarici ölkələrdə tanıdılması, reklam və satış həcminin artırılması üçün onların elektron kataloqlarının hazırlanması zərurəti yaranıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırıqlarına əsasən bu istiqamətdə tədbirlər həyata keçirilməkdədir.

Bu məqsədlə muxtar respublikada istehsal olunan ixrac baxımından perspektivli hesab edilən məhsulların elektron kataloqu hazırlanır. Kataloq Azərbaycan və ingilis dillərində olacaqdır. Kataloqda məhsulların fotoşəkilləri, istehsalçılar haqqında məlumatlar yerləşdiriləcəkdir. Elektron kataloqun “Naxçıvan Məhsulları” MMC-nin ***www.pronak.az*** saytında yerləşdirilməsi nəzərdə tutulur. Həmçinin ***www.agronax.az*** saytında mağaza bölməsi və kataloq bölməsi təsis olunacaqdır ki, istifadəçilər burdan məhsullarla tanış olma imkanı əldə edəcəklər.

Muxtar respublikamızda fəaliyyət göstərən sənətkarların əl işləri və sənət əsərlərinin elektron kataloqunun hazırlanması istiqamətində də tədbirlər görülməkdədir. Xalçatoxuma üzrə 35, ağac üzərində oyma sənəti üzrə 50, dekorativ-tətbiqi sənəti üzrə 60, papaqçılıq sahəsi üzrə 20, mis üzərində döymə sənəti üzrə 30, rəssamlıq üzrə 285 olmaqla, ümumilikdə, 480 ədəd əl işi və sənət əsərinin fotoşəkilləri çəkilib. Həmin fotoların kataloq halına salınması üzrə işlər aparılır. Bu işlər tamamlandıqdan sonra müvafiq saytlarda yerləşdirilməsi həyata keçiriləcəkdir.

Qeyd olunan əl işi və sənət əsərləri haqqında kataloqun məlumat bölməsində işin ölçüsü, hazırlandığı materialı, müəllifi, sənətkarın fəaliyyət göstərdiyi yer və qiyməti göstəriləcəkdir.

Gələcəkdə əl işi və sənət əsərlərinin onlayn satış imkanlarının yaradılması da nəzərdə tutulur. Bu da yerli istehsal məhsullarının, əl işi və sənət əsərlərinin sosial şəbəkələrdə reklam və təbliğat imkanlarını artıracaqdır.

*“Naxçıvan” Universitetində Pedaqoji fakültənin əyani şöbə üzrə III kurs tələbələrinin 2015-2016-cı tədris ilinin ikinci yarısında keçdikləri pedaqoji təcrübəyə həsr edilmiş yekun konfrans keçirilib.*

## Pedaqoji təcrübənin yekun konfransı keçirilib

Konfransda çıxış edən ali təhsil ocağının rektoru, professor İsmayıl Əliyev bildirib ki, pedaqoji təcrübə tələbələrin ali təhsil zamanı aldıqları nəzəri bilikləri sınaqdan çıxarmaları, pedaqoji mühitə alışmaları, müəllimlik sənətinin sirlərinə daha dərindən yiyələnmələri, ümumtəhsil məktəbləri ilə əməkdaşlığın möhkəmləndirilməsi, yüksək intellektli müəllim hazırlanması baxımından mühüm əhəmiyyət kəsb edir. Rektor pedaqoji təcrübənin uğurla başa çatması münasibətilə tələbələri təbrik edib, onlara həyatda və təhsildə uğurlar arzulayıb.

Təcrübə müddətində tələbələrin göstərdiyi fəallığı vurğulayan pedaqoji təcrübənin qrup rəhbərləri bildiriblər ki, 2015-2016-cı tədris ilinin birinci yarısında “Naxçıvan” Universitetinin 98 tələbəsi Naxçıvan şəhərindəki Heydər Əliyev adına məktəbdə, 8 və 15 nömrəli tam orta məktəblərdə pedaqoji təcrübə keçiblər.

Təcrübəçi tələbələrdən bir neçəsi çıxış edərək təcrübə zamanı onlar üçün yaradılmış şəraitdən, göstərilən qayğıdan danışıblar.

Sonra tələbə-gənclər görülmüş işlərə dair hesabatı, gündəliyi, sınaq dərslərinin nümunəvi icmallarını, protokolları və əyani vəsaitləri, həmçinin keçirilmiş tərbiyəvi-əxlaqi tədbirlərin mətninə aid sənədləri təhvil veriblər.

Sonda təcrübədə fərqlənən tələbələrə diplom və fəxri fərmanlar təqdim olunub.

## Yaşayış binalarının yenidən qurulması davam etdirilir

Naxçıvan şəhərinin “İstiqlal” küçəsindəki 99 nömrəli, 36 mənzilli binanın yenidən qurulmasına başlanılıb. Yenidən qurulması “Dizayn” Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçılarına həvalə edilən binada söküntü işləri gedir.

Obyektin iş icraçısı Nazim Tağıyevin bildirdiyinə görə, ilkin mərhələdə binanın qəzalı vəziyyətdə olan eyvanları və sonradan artırılan hissələri söküləcək. Sonrakı mərhələdə bina beton sütunlarla möhkəmləndiriləcək, dam örtüyü dəyişdiriləcək, bina arxaya doğru 3 metrlik məsafədə artırılacaq. Bu da bina sakinlərinin mənzil sahəsinin genişlənməsinə, daha rahat mənzillərdə yaşamalarına şərait yaradacaq. Binanın su-kanalizasiya, qaz və elektrik xətləri də tamamilə yenilənəcək. Bundan başqa, binanın zirzəmisi də dərinləşdirilərək təmir olunacaq, yararlı vəziyyətdə Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayına təhvil veriləcək.

Qeyd edək ki, muxtar respublikada insanların mənzil şəraitinin yaxşılaşdırılması sahəsində həyata keçirilən tədbirlər üç mərhələdə aparılır. İlk növbədə, qayğıya ehtiyacı olan vətəndaşlar mənzil və fərdi yaşayış evləri ilə təmin olunur. İkinci mərhələdə mövcud yaşayış binaları yenidən qurularaq sakinlərin istifadəsinə verilir. Üçüncü mərhələdə isə qəzalı vəziyyətdə olan yaşayış binaları sökülərək yerində daha müasir yaşayış binaları tikilir. Həyata keçirilən bu tədbirlər dövlətimizin vətəndaşlara göstərdiyi qayğının daha bir ifadəsidir.

**Xəbərlər şöbəsi**

***Tarixin hər bir inkişaf mərhələsinin özünəməxsus xüsusiyyətləri, hədəfləri və çağırışları vardır. Bu çağırışlara cavab vermək üçün elmi əsaslara söykənən ən müasir idarəetmə üsullarının tətbiqi tələb edilir və strateji yanaşmaların daha uzunmüddətli dövrü əhatə etməsi zərurəti yaranır. Muxtar respublikada fəaliyyətdə olan dövlət proqramlarının icrası zamanı məsələlərə yanaşmada müasir dövrün tələblərinin əsas götürülməsi, inkişafın planlaşdırılması və idarə edilməsinə əsaslanan səmərəli idarəetmə sisteminin mövcudluğu davamlı yüksəlişi təmin edəcək əsaslı amillərdən biridir. Ötən ay biz bunun bir daha şahidi olduq.***



*İcmal*

# Müasir dövrün çağırışlarına cavab verən inkişaf strategiyası gələcəyimizin qarantıdır

## *Ötən ay muxtar respublikada bu inkişafın əsas istiqamətləri müəyyənləşdirilib*

Müstəqilliyimizin ilk illərində Naxçıvanda qəbul edilən tarixi qərarlar Azərbaycan dövlətçiliyinin formalaşması, onun tərəqqisi, milli, iqtisadi strategiyanın müəyyənləşdirilməsi, diplomatik münasibətlərin qurulması kimi əhəmiyyətli məsələlərdə mühüm rol oynayıb. Qədim diyar bu gün də dövlətçiliyimizin qətiyyətli müdafiəçisi kimi respublikamızın beynəlxalq təşkilatlarla əməkdaşlığının daha da möhkəmləndirilməsinə, inkişaf etdirilməsinə öz töhfəsini verir.

Martın 2-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycan Respublikasındakı rezident nümayəndəsi vəzifəsini icra edən Ercan Muratla görüşüb.

Qonağı Naxçıvanda görməkdən məmnunluğunu bildirən Ali Məclisin Sədri onun ölkəmizdəki birinci fəaliyyəti dövründə Birləşmiş Millətlər Təşkilatı ilə Azərbaycan, eləcə də Naxçıvan Muxtar Respublikası arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini diqqətə çatdırıb. Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Birləşmiş Millətlər Təşkilatı arasında əlaqələrin olduğunu bildirib, münasibətlərin bundan sonra da qarşılıqlı faydalı əməkdaşlıq şəraitində davam etdirilməsinin əhəmiyyətini vurğulayıb.

Martın 7-də isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Serhan Aktoprakla görüşüb. Görüşdə əlaqələrin gələcək inkişafı ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Müasir dövrümüzdə dünyanın ən ciddi problemlərindən biri də qlobal istiləşmə və ətraf mühitin ekoloji tarazlığının pozulması məsələləridir. Təbiətdəki tarazlığın qorunması təkcə bu günümüz üçün deyil, həm də gələcəyimiz üçün çox böyük əhəmiyyətə malikdir. Sevindirici haldır ki, muxtar respublikamızda təbiətin mühafizəsi, yaşıllıqların qorunması, yeni yaşıllıqların salınması istiqamətində məqsədyönlü işlər həyata keçirilir. Bu məsələdə doğma yurdumuzda çox gözəl ənənə formalaşıb. Hər il muxtar respublikamızın əhalisi baharın gəlişini səliqə-sahman yaratmaqla, yaşıllıqlar salmaqla qarşılayır və bu proses ilboyu çox böyük uğurla davam etdirilir. İşgüzarlıq, təbiətə qayğı və torpağa bağlılıqdan qaynaqlanan bu xeyirxah əməllər nümunədir.

Martın 5-də Naxçıvan Muxtar Respublikasında iməciliklər keçirilib, təmizlik-abadlıq işləri görülüb, yeni yaşıllıq zolaqları və meyvə bağları salınıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri iməcilikdə iştirak edib, püstə bağında yeni tinglər əkib. Həmin gün muxtar respublika ərazisində iməciliklər yolu ilə 23 minə yaxın ting və 18 mindən artıq bəzək kolları əkilib.

Martın 7-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə "Naxçıvan qadınları müstəqillik illərində" mövzusunda tədbir keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri əvvəlcə qadınların əl işlərindən, rəsm əsərlərindən, eləcə də onların müəllifi olduğu kitablardan ibarət sərgiyə baxıb.

Sərgi ilə tanışlıqdan sonra keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri çıxış edərək deyib: ***"Hər bir cəmiyyətin inkişaf səviyyəsi, o cəmiyyətdə qadına olan münasibətlə sıx bağlıdır. Azərbaycanda qadın adı həmişə uca tutulmuş, böyük ehtiram göstərilmişdir. Hələ orta əsrlərdə Naxçıvanda və Qarabağlarda qadın adına layiq Möminə xatın və Quti xatın türbələri ucaldılmışdır. Bunlar bənzərsiz memarlıq abidələri olmaqla yanaşı, eyni zamanda qadına münasibətin nümunəsi idi. Milli kimlik pasportumuz olan "Kitabi-Dədə Qorqud" dastanının qadın qəhrəmanları bu gün də mənəvi saflığın, sədaqətin və mərdliyin rəmzi hesab olunurlar. Belə nümunələr kifayət qədər çoxdur. Qəhrəmanlıqla dolu keçmişimizə nəzər salsaq, görərik ki, istər torpaqlarımızın müdafiəsində, milli dövlətçiliyin formalaşmasında və idarə olunmasında, istərsə də xalqımıza məxsus dəyərlər sisteminin yaşadılmasında xidmətləri olan qadınlarımıza hörmət və ehtiram əlaməti olaraq xatın, bəyim, banu və xanım kimi adlar verilərək ehtiram göstərilmişdir. Xalqımız üçün çox müqəddəs olan vətənin, torpağın və dilin ana vətən, ana torpaq, ana dili adlandırılması da Azərbaycan türklərində qadın, ana adına verilən yüksək qiymətin ifadəsidir".***

İnformasiya-kommunikasiya texnologiyalarının cəmiyyətin inkişafına təsir göstərən mühüm amillərdən birinə çevrilməsi artıq danılmaz faktdır. Təsadüfi deyil ki, dövlət strukturlarının və vətəndaş cəmiyyəti institutlarının fəaliyyətini də əhatə edən İKT dünya iqtisadiyyatının ən sürətlə inkişaf edən və perspektivli sahələrindən biri sayılır. İnformasiya cəmiyyətinə istiqamətlənmiş İKT-nin muxtar respublikamızda da sürətlə inkişaf etməsi və dövlət tərəfindən göstərilən hərtərəfli diqqət və qayğı sözügedən sahədə bundan sonra da yeniliklərin əldə ediləcəyinə zəmanət verir.

Martın 11-də "Naxçıvan" Universitetində Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sistemlərinin təqdimatı olub.

***"Ölkə Prezidentinin müvafiq sərəncamlarına uyğun olaraq elektron sənəd dövriyyəsi, eləcə də vətəndaşlardan daxil olan ərizə və müraciətlər üzrə elektron qeydiyyat sistemi yaradılmışdır. Qabaqcıl proqram təminatına əsaslanan bu sistem muxtar respublikada vətəndaş cəmiyyətinin və vətəndaşla dövlət orqanları arasında münasibətlərin inkişafına mühüm töhfədir",*** – deyən Ali Məclis Sədri bu işin mühüm əhəmiyyəti olduğunu bildirib, sistemin yaradılmasında əməyi olanlara təşəkkür edib.

Muxtar respublikada müharibə veteranları və şəhid ailələri hərtərəfli dövlət qayğısı ilə əhatə olunub. Bu kateqoriyadan olan insanların sosial-məişət şəraitinin yaxşılaşdırılması, onların yaşayış səviyyəsinin yüksəldilməsi buradakı inkişaf və tərəqqinin bəhrələridir. Bunun nəticəsidir ki, ötən il 10 nəfər müharibə əlili və şəhid ailəsi mənzillərlə, müvafiq kateqoriyalı sağlamlıq imkanları məhdud 16 nəfər minik avtomobili ilə təmin edilib.

Martın 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 1 şəhid ailəsinə və 2 sağlamlıq imkanları məhdud Azərbaycan Vətən Müharibəsi iştirakçısına yeni mənzillər təqdim edilib.

Hər bir ölkənin gələcəyi şaxələndirilmiş iqtisadiyyat ilə bağlıdır. Bu, dayanıqlı iqtisadiyyatı təmin edən əsas vasitələrdən biridir. Bu baxımdan turizm sektorunun inkişafı daha çox diqqəti cəlb edir. Bu sektor bir neçə cəhətdən – iqtisadiyyatın güclənməsi, bölgələrin inkişafı və tanıdılması baxımından səciyyəvidir. Turizm müasir dünyanın qlobal əhəmiyyətə malik, sosial və iqtisadi əlaqələrini tənzimləyən, müxtəlif ölkələr və xalqlar arasında qarşılıqlı münasibətlər yaradan, biznes maraqlarının əhatə dairəsini genişləndirən sahədir. Dünyanın hər yerində turizmin inkişafına maraq göstərilir. Aparılan sosioloji tədqiqatlardan məlum olub ki, hələ ötən əsrin sonlarında turizm sahəsində dünyada əldə olunan gəlirin həcmi 450 milyard dolları keçib. Hesablamalara görə, 2020-ci ilə qədər turizm özünün ən yüksək inkişaf həddinə çatacaq. Həmin ildə dünya üzrə turistlərin sayının 2 milyard nəfərdən çox olacağı proqnozlaşdırılır. Bu da indiki dövrlə müqayisədə xeyli çoxdur.

Muxtar respublikamızda turizmin inkişafı üçün sabitlik, iqtisadi, psixoloji, mədəniyyət, tarixi, təbii-coğrafi potensial var. Bu, Naxçıvanın beynəlxalq turizm marşrutuna daxil olmasına kifayət edir. Regionumuzda turizm sektoru qaneedici səviyyədə inkişaf etsə və biz doğma diyarımıza turistləri cəlb etsək, onda yeni iş yerləri açılacaq və yeni-yeni müəssisələr yaranacaqdır. Həmçinin yerli əhali əlavə gəlir və qazanc əldə edəcək, yerli mallara daha çox istehsal tələbatı yaranacaqdır. Bundan başqa, turizmin inkişafı ilə əlaqədar yeni ixtisaslar, texnologiyalar meydana gələcəkdir. Ətraf mühitin qorunmasının əhəmiyyəti daha düzgün dərk olunacaq, səhiyyə xidməti yeni keyfiyyət zəminində inkişaf etdiriləcəkdir. Beləliklə, cəmiyyətin həyatında əsaslı inkişaf baş verəcəkdir.

Martın 18-də muxtar respublika Ali Məclisində Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilən müşavirə, bu mənada, böyük əhəmiyyətə malikdir.

Martın 19-da Naxçıvan şəhərindəki Əcəmi Seyrəngahı Mədəniyyət və İstirahət Kompleksində Novruz bayramı münasibətilə keçirilən ümumxalq şənliyi şəhər sakinləri ilə yanaşı, muxtar respublikamızın qonaqlarında da xoş ovqat yaradıb, maraqlı və yaddaqalan olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri bayram şənliyində iştirak edib.

Ali Məclisin Sədri əziz bayram günündə şəhidlərimizin xatirəsini dərin ehtiramla yad edib, şəhid ailələrini, sabitliyimizi qoruyanları, torpaqlarımızın keşiyində dayanan əsgər və zabitləri, tədbir iştirakçılarını, bütün muxtar respublika əhalisini Novruz bayramı münasibətilə təbrik edib, hər kəsə xoş bayram ovqatı arzulayıb.

Martın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Naxçıvan Hərbi Hospitalına gəlib, hərbi qulluqçuların sağlamlığı, müalicəsi, dərman təchizatı və qidalanması ilə maraqlanıb. Həmin gün Ali Məclisin Sədri Psixi Xəstəliklər Dispanserinə gəlib, səhiyyə ocağındakı xəstələri və tibb işçilərini Novruz bayramı münasibətilə təbrik edib.

Naxçıvan Muxtar Respublikasının "Şərqə açılan qapısı" adlandırılan Culfa rayonu bu gün inkişafının yüksəliş dövrünü yaşayır. Göstərilən dövlət qayğısı nəticəsində rayon iqtisadiyyatının bütün sahələrinin dinamik inkişafı tikinti-quraşdırma, abadlıq və yenidənqurma işlərinin artmasına, yeni infrastruktur obyektlərinin yaradılmasına imkan verib. Digər rayonlarımızda olduğu kimi, Culfada da kəndlərin inkişafı muxtar respublikada həyata keçirilən quruculuq siyasətinin əsas istiqamətlərindən biridir. Aparılan bu işlərin əsas məqsədi kənd sakinlərinin rahat yaşayışını təmin etmək, kəndlə inkişaf etmiş şəhər arasındakı fərqi aradan qaldırmaq, insanların yurda, torpağa bağlılığını artırmaqdır.

Bu gün Culfa rayonunun Saltaq kəndi də yeni inkişaf dövrünü yaşayır. Təbiət möcüzəsi hesab edilən, görünüşü, əzəməti ilə gözoxşayan Həcədağın ətəyində, gur axan Əlincəçayın sahilində yerləşən bu kənddə geniş quruculuq işləri aparılıb. Artıq Saltaq kəndi ölkəmizin sürətli sosial-iqtisadi inkişafını əks etdirən müasir yaşayış məntəqəsinə çevrilib. Martın 28-də Saltaq kənd tam orta məktəbinin yeni binası, kənd mərkəzi, həkim ambulatoriyası, xidmət mərkəzi, kənd avtomobil yolu və körpü, su dəyirmanı istifadəyə verilib.

Bu obyektlərin hər biri misilsizdir. Onlar arasında su dəyirmanının da xüsusi yeri vardır. Tarixi-mədəni irsimizin bir parçası olan su dəyirmanları bu gün də xalq arasında xeyir-bərəkət rəmzi kimi dəyərləndirilir. Həmin dəyirmanların üstünlükləri çoxdur. Məhz su dəyirmanlarında üyüdülmüş undan çörək yeyənlərdə şəkər xəstəliyi olmur. Yəni su dəyirmanı əsl sağlamlıq mənbəyidir.

Muxtar respublikamızda kənd təsərrüfatının inkişafını nəzərdə tutan dövlət proqramlarının uğurlu icrası, bu sahəyə dövlət büdcəsindən subsidiyaların ayrılması təsərrüfatçılara yeni stimul verməklə yanaşı, əkinçiliyə, həmçinin kənd təsərrüfatının digər sahələrinə marağın artmasına səbəb olub. Bu isə həm də təşəbbüskarlığın artması, fərdi təsərrüfatçılığın inkişafı deməkdir. Muxtar respublikamızda həyata keçirilən iqtisadi islahatlar əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təmin olunmasını, kənd təsərrüfatının bütün sahələrinin inkişafı məsələsini ön plana çıxarıb.

Bu baxımdan martın 29-da "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətində Naxçıvan Muxtar Respublikasında aqrolizinq sahəsində fəaliyyətin təşkili və yaz-tarla işlərinə hazırlığın vəziyyəti ilə əlaqədar keçirilən səyyari müşavirə böyük əhəmiyyətə malikdir.

Müşavirədə kənd təsərrüfatı sahəsində yeni innovasiyaların tətbiqinə və müasir texnikalardan istifadəyə, meliorasiya və suvarma tədbirlərinin vaxtlı-vaxtında aparılmasına, kənd təsərrüfatı məhsullarının sığortalanmasına və digər əhəmiyyətli məsələlərə diqqət yetirilməsinin vacibliyi vurğulanıb.

***"Kənd təsərrüfatı sahəsində nəticə əldə etmək üçün aid təşkilatlar tərəfindən kompleks tədbirlər görülməlidir"***, – deyən Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə olunacağına və 2016-cı ilin yaz əkinlərinin uğurla başa çatdırılacağına əminliyini bildirib, bu işdə muxtar respublikanın kənd təsərrüfatı işçilərinə uğurlar arzulayıb.

*Bu gün muxtar respublikada kənd təsərrüfatı sahəsində qazanılan uğurlara böyük zəhmətlər hesabına nail olunub. Həqiqətən də vətənpərvər, fədakar insanlar aqrar sektor daxil olmaqla iqtisadiyyatın bütün sahələrini davamlı inkişaf etdirmək üçün yorulmadan çalışırlar. Muxtar respublikamızın gələcəyə daha uğurla addımlaması üçün dövlətimizin siyasi iradəsi və gücü vardır. Məhz bunun nəticəsində gələcəyimizin inkişaf istiqamətlərini bu gündən proqnozlaşdırmaq mümkündür. Belə ki, təkcə mart ayı ərzində keçirilən müşavirələrdə qarşıya qoyulan vəzifələrin icrası birmənalı şəkildə daha böyük uğurlar əldə etməyimizə yol açacaqdır. Çünki həmin tələblər həm də müasir dövrün çağırışlarına cavab verən inkişaf strategiyasının tərkib hissəsidir.*

**Rauf ƏLİYEV**

# Naxçıvanı turistlərin yaddaşında necə saxlayaq?

## Turizmin inkişafı milli suvenir bazarının canlandırılması ilə düz mütənasibdir



***Naxçıvan artıq yeni bir marşrut kimi turistlərin diqqətini ildən-ilə daha çox cəlb edir. Rəsmi olaraq yayılan statistik rəqəmlər belə deməyə əsas verir. Turizmin inkişafı hazırda elə bir prioritet sahəyə çevrilib ki, bu sahəni heç bir halda ikincidərəcəli hesab etmək mümkün deyil. Naxçıvan Muxtar Respublikası Ali Məclisində bu sahənin inkişafı ilə bağlı keçirilmiş müşavirə də bunu bir daha təsdiq etdi. Müşavirədə səsləndirildiyi kimi muxtar respublikamızda turizmin inkişaf etdirilməsi üçün kifayət qədər potensialımız var. Ancaq potensialın olması məsələnin bir tərəfidirsə, bu potensialdan lazımınca istifadə etmək, mövcud resurslardan səmərəli şəkildə faydalanmaq, ən əsası isə işin düzgün icrası da mühüm şərtlərdəndir.***

Ötən yazılarımızda da qeyd etdiyimiz kimi, turizm ümumxalq işidir. Buna görə də bu sahənin inkişafına hər kəs öz töhfəsini verməlidir. Bu gün hər birimizin məqsədi muxtar respublikamıza turistlərin gəlməsinə yox, yenidən gəlməsinə nail olmaqdır. Turizm çoxprofilli sahə olduğundan, bu yazıda həmin istiqamətlərdən biri haqqında bəhs etməyə çalışacağıq.

Müasir dövrdə istənilən ölkədə və ya regionda turistlərin əsl marağına səbəb olan amillərdən biri fərqlilikdir. Yəni turist hansı ölkəyə gedirsə, orada mütləq fərqli və maraqlı bir şey axtarır. Məhz bu maraqlılığı (özünəməxsusluğu) layiqincə təmin edə bilən ölkələr turist axını sarıdan korluq çəkmirlər. Qeyd etmək lazımdır ki, həmin özünəməxsusluğu yaradan amillər sırasında suvenirlər mühüm yer tutur. Aparılan sorğular nəticəsində məlum olub ki, turistləri getdikləri ölkə haqqında sonradan düşündürməyə məcbur edən səbəblər içərisində suvenirlər öndə gəlir. Çünki suvenirlərdə aid olduğu ölkənin tarixindən, mədəniyyətindən, məişətindən tutmuş dəyərlərinə, dünyaya baxış tərzinə, zövqündədək çox cizgilər yatır. Buna görə də turizmin inkişaf etdiyi ölkələrdə suvenir bazarları təkcə tələbat üzərində deyil, həm də güclü marketinq strategiyası əsasında formalaşır. Yəni bəzən qonaq kimi getdiyimiz bir ölkədən aldığımız kiçik bir hədiyyəlik əşyada, sadəcə, bir ustanın və ya sənətkarın əl izləri deyil, bəzən onlarla sahənin mütəxəssisi olan insanların fokuslaşmış düşüncəsi öz əksini tapır. Elə bu aspektdən yanaşaraq bu günlərdə Naxçıvanın suvenir bazarı ilə bağlı kiçik bir araşdırma apardıq.

Əvvəlcə onu qeyd etmək lazımdır ki, muxtar respublikamızda suvenir bazarının inkişaf etdirilməsi yönündə ilk addımlar dövlət tərəfindən atılıb. Son illərdə şəhərimizdəki Heydər Əliyev prospektində, 2015-ci ildə isə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində əl işlərindən ibarət mağazalar fəaliyyətə başlayıb.

Burada bir haşiyə çıxaraq bildirim ki, müxtəlif dövrlərdə Naxçıvanda əl işləri ilə məşğul olan sənətkarlar fəaliyyət göstərsə də, bu fəaliyyət milli suvenir bazarının formalaşmasına gətirib çıxarmayıb. Adıçəkilən mağazaların fəaliyyətə başlaması həm də ona görə qürurverici idi ki, sənətkarlığın əsl inkişaf etdiyi orta əsrlər dövründən yüz illər sonra Naxçıvan yenidən bu mədəni mirasına sahib çıxmağı qarşısına məqsəd qoyub.

Yuxarıda adıçəkilən mağazalarda olduq, satıcılarla söhbət etdik. Öyrəndik ki, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində yerləşən mağazaların birinə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi nəzarət edir. Belə ki, komitə tərəfindən muxtar respublikada müxtəlif əl işləri ilə məşğul olan qadınlarla əməkdaşlıq edilərək onların hazırladıqları nümunələr mağazada satışa çıxarılır. Burada milli kişi və qadın, eyni zamanda uşaq geyimləri, şərf və papaqlar, masa örtükləri, kiçikölçülü xalçalar, parçadan tikilmiş mücrülər, sandıqça, yastıqlar ilk baxışdan diqqəti cəlb edir. Mağazanın İslam adlı satıcısı deyir ki, Novruz bayramı günlərində Naxçıvan şəhərində təşkil olunmuş sərgidə buradakı məhsullardan turistlərə xeyli sata bildik. Ancaq mağazada işlər hələlik ləng gedir, güman qalıb kompleksi ziyarət etməyə gələn ziyarətçilərə.

Kompleksdə yerləşən digər mağazada isə məhkumların əl işləri satışa çıxarılıb. Mağazadakı əşyaların böyük əksəriyyəti ağacdan düzəldilmiş sənətkarlıq nümunələridir ki, belə nümunələrə telefon altlığını, gəmi maketini, kiçik ağac çöpləridən hazırlanmış məscid maketini, rəhili (kitabı açıq saxlamaq üçün altlıq), kiçik masa üzərində işlənmiş nərd taxtasını və digərlərini misal göstərmək olar. Eyni zamanda misdən hazırlanmış mücrülər, sandıqçalar, bir neçə tarixi abidənin qabartma üsulu ilə işlənmiş lövhələri də diqqəti cəlb edir. Bu mağazada da toxunma qadın və uşaq geyimlərinə rast gəlmək mümkündür. Coşqun adlı satıcı deyir ki, satışın olması üçün turistlərin bura çox gəlməsi lazımdır. Ancaq hələlik gördüyünüz kimi satış çox zəifdir. Hər halda qarşıdan gələn yay mövsümünə ümidlərimiz böyükdür.

Heydər Əliyev prospektindəki mağazalarda da satıcılar bayram günlərində satışın normal olduğunu bildirdilər. Buradakı satıcıların da qənaətinə görə, yaz və yay aylarında Naxçıvana gələnlərin sayı çoxalır və bu da satışlara təsir edir. Buradakı mağazalarda da, əsasən, toxunma geyimlər, rəsm və misgərlik nümunələri, kiçikölçülü xalçalar, kartondan düzəldilmiş hədiyyə qutuları kimi əl işləri alıcılara təqdim olunur.

Şəhərimizdəki digər suvenir mağazalarında isə, əsasən, müxtəlif ölkələrdən gətirilmiş hədiyyəlik əşyalar satılır. Çox nadir hallarda hansısa bir yerli rəssamın və ya sənətkarın əl işinə rast gəlmək olur.

Muxtar respublikamızda yeni dirçəlməyə başlayan suvenir bazarı ilə bağlı gəldiyimiz ümumi nəticə bundan ibarət oldu ki, turizmin inkişaf etdirilməsi paralel olaraq bu bazarın formalaşmasını da qaçılmaz edir. Yuxarıda adını çəkdiyimiz müşavirədə muxtar respublikada müxtəlif qurumların, o cümlədən Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin qarşısında bununla bağlı tapşırıqlar qoyulmuşdur. İnanırıq ki, yaxın gələcəkdə bu sahədə müəyyən dəyişikliklərin şahidi olacağıq. Ancaq mövzu ilə bağlı bəzi qənaətlərimizi də hörmətli oxucularımızla, daha doğrusu, bu sahə ilə məşğul olan sahibkarlarımızla bölüşmək istərdik.

Bəri başdan deyim ki, suvenir bazarı özündə xeyli çeşiddə məhsulları birləşdirir. Bura gündəlik istifadə etdiyimiz və yaxud evimizin bir küncündə bəzək məqsədilə saxladığımız çoxsaylı əşyalar daxildir. Lakin burada ən vacib olanı satılan əşyaların üzərində ölkəmizlə və Naxçıvanla bağlı ştrixlərin olmasıdır. Məsələn, təkcə turistlər üçün deyil, elə muxtar respublika sakinləri üçün də üzərində Naxçıvanın xəritəsi, tarixi və təbiət abidələri olan boşqablar, fincanlar, açarlıq və pul kisələri, Şərur yallıları rəqslərinin əks olunduğu güldanlar, eyni zamanda milli ornamentli çarıqlar, kəlağayılar, araqçınlar və sair maraqlı olar. Təbii ki, sadaladığımız və adını çəkmədiyimiz hədiyyəlik əşyaların hamısı əl işi olmaya da bilər. Ancaq yerli sahibkarlar hələlik bunu məhsul idxal etdiyi ölkələrdən sifarişlə əldə edə bilərlər. Necə deyərlər, bir az vətənpərvər olmaq bu işi yoluna qoya bilər. Hansı ki turizmin inkişaf etdirildiyi ölkələrin bir çoxu bunu indi də edir. Məsələn, bu yaxınlarda Acarıstanın paytaxtı Batumidə olarkən üzərində gürcü rəqsindən bir süjet həkk olunmuş çox kiçik bir su fincanı almışdım. Hansı ki bu fincanla su içmək mümkün deyil, çox kiçikdir. Ancaq mən ondan bir neçə dənə almışdım ki, yaxın dostlarıma da pay verə bilim. Alarkən satıcıdan bu fincanın harada istehsal olunduğunu soruşmuşdum. O isə bu və digər buna bənzər əşyalar üçün vaxtaşırı olaraq Çin Xalq Respublikasına və yaxud Türkiyə Respublikasına sifariş verdiklərini demişdi. Analoji olaraq bunu biz də edə bilərik. Yeri düşmüşkən bir məsələni də vurğulayaq ki, turistlər, adətən, getdikləri ölkədən bir əşya alarkən çox zaman yaxınlarını da nəzərə alırlar. Bunun üçün aldıqları məhsulun ucuz olması burada böyük rol oynayır. Etiraf etmək lazımdır ki, bizim bazarda hələlik belə məhsullar yoxdur. Məlumat üçün deyim ki, bu gün Avropanın turizmə doymuş böyük şəhərlərinin əksəriyyətində "bir avroya nə istəyirsən al" məntiqi kifayət qədər işləkdir. Yəni sadaladıqlarımız tərəflərin hər birində turist istəyinin hərtərəfli təminatı durur ki, bunun da arxasında bizim üçün Naxçıvanın təbliği və iqtisadi mənfəətimiz dayanır.

*Yazının sonunda onu da xatırlatmaq istərdik ki, iki ildən sonra Naxçıvan öz tarixində İslam Mədəniyyətinin Paytaxtı kimi böyük bir beynəlxalq tədbirə ev sahibliyi edəcək. Bu tədbirin keçirilməsi muxtar respublikanın təbliğində haqqında bəhs etdiyimiz bazarın əhatə dairəsini genişləndirməyi tələb edir. Ona görə qolları indidən çırmalamağın vaxtı yetişib.*

**Səbuhi HƏSƏNOV**

***Muxtar respublikamızda uzunömürlü ailələrin yubiley tədbirlərinin, o cümlədən ailələrin gümüş, qızıl və brilyant toylarının qeyd olunması artıq ənənəyə çevrilib.***

# Uzunömürlü ailənin brilyant toyu qeyd olunub



Belə ailələrdən biri də Kəngərli rayonunun Xok kəndində yaşayan Babayevlər ailəsidir. Bu il ailənin evliliklərinin 60 ili tamam olur. Onların 5 övladı, 13 nəvəsi və 18 nəticəsi var.

Aprelin 1-də Fərman Babayevin və Xanım Babayevanın evliliklərinin 60 illiyi münasibətilə tədbir keçirilib. Tədbirdə Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov, Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək ailəni evliliklərinin 60 illiyi münasibətilə təbrik edib, onlara cansağlığı və firavan həyat arzulayıblar.

Vurğulanıb ki, muxtar respublikamızda yaşayan ailələrin sosial müdafiəsinin gücləndirilməsi, onların həyat şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Uzunömürlü ailələrin yubileylərinin qeyd edilməsi muxtar respublikada ailələrimizə, o cümlədən insanlarımıza göstərilən diqqət və qayğının ifadəsidir. Belə ailələr cəmiyyətimizdə yeni qurulan gənc ailələr üçün örnəkdir.

Sonda ailəyə hədiyyələr təqdim olunub.Yubilyarlar və onların ailə üzvləri göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

# Sağlamlıq imkanları məhdud uşaqlar arasında şeir müsabiqəsi

*2 aprel – Beynəlxalq Uşaq Kitabı Günü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Təhsil, Əmək və Əhalinin Sosial Müdafiəsi, Mədəniyyət və Turizm nazirliklərinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə sağlamlıq imkanları məhdud uşaqlar arasında "Müstəqilliyimiz əbədidir" mövzusunda şeir müsabiqəsi keçirilib.*

Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində təşkil olunan tədbirdə müsabiqə iştirakçıları əvvəlcə Azərbaycan və dünya uşaq ədəbiyyatının nümunələrindən ibarət kitab sərgisinə baxıblar.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin sektor müdiri Rasim Rüstəmov, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin şöbə müdiri Elçin Novruzov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri Sahir Rüstəmov çıxış edərək bildiriblər ki, "Müstəqilliyimiz əbədidir" mövzusunda müsabiqənin keçirilməsində məqsəd uşaqlarda müstəqilliyimizə sevgi aşılamaq, kitaba marağı artırmaq və sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətlə bağlılıqlarını daha da möhkəmləndirməkdir.

Muxtar respublikada uşaqların kitaba marağını artırmaq üçün uşaq ədəbiyyatı sahəsində kitabların nəşri də diqqət mərkəzində saxlanılır. 2011-ci ildə "Uşaqlar və Günəş" almanaxı, 2014-cü ildə "Şeir və hekayələr", "Təmsillər", "Poema və pyeslər" kitabları yüksək tərtibatla çap olunaraq uşaq oxucuların istifadəsinə verilib.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nda belə uşaqların istedadlarının aşkara çıxarılması, o cümlədən yaradıcılıq müsabiqələrinin keçirilməsi də yer alıb. Bu mənada, keçirilən şeir müsabiqəsi uşaqların asudə vaxtının səmərəli təşkilinə, cəmiyyətdə özlərini realizəetmə imkanlarının artırılmasına, ictimai həyatın aktiv iştirakçısı olmaq bacarıqlarının üzə çıxarılmasına şərait yaradır.

Sonda qaliblər və həvəsləndirici yerlərə layiq görülənlər təşkilatçılar tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılıb.

**Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti**

*Dünən M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında 2 aprel – Beynəlxalq Uşaq Kitabı Günü ilə bağlı tədbir keçirilib.*

# Beynəlxalq Uşaq Kitabı Günü qeyd edilib



Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi Aparatının şöbə müdiri Həsən Kərimov açaraq bildirib ki, uşaq ədəbiyyatının inkişafında əvəzsiz rolu olan danimarkalı yazıçı Hans Kristian Andersenin anadan olduğu gün – 2 aprel tarixi 1967-ci ildən etibarən YUNESKO-nun Beynəlxalq Uşaq və Gənclər Ədəbiyyatı Şurasının təşəbbüsü və qərarı ilə bütün dünyada "Beynəlxalq Uşaq Kitabı Günü" kimi qeyd edilir. Bu günün qeyd olunmasında məqsəd uşaqların intellektual inkişafında kitabın rolunu artırmaq, onlarda mütaliəyə sevgi aşılamaq və diqqəti uşaq kitabının nəşrinə yönəltməkdir.

Vurğulanıb ki, bu gün ölkəmizdə uşaq kitablarının nəşrinə böyük diqqət yetirilir, uşaqlar üçün nəfis kitablar nəşr edilir. Muxtar respublikamızda da son illərdə uşaq kitablarının nəşrinə diqqət artırılıb. Son bir neçə ildə Naxçıvan Yazıçılar Birliyi də uşaq kitablarının nəşri ilə bağlı müəyyən işlər görüb. "Uşaqlar və Günəş" kitabı işıq üzü görüb və ictimaiyyət tərəfindən maraqla qarşılanıb. Bundan başqa, uşaq ədəbiyyatının nümunələrini əks etdirən bir neçə kitab hazırlanaraq nəşr edilib.

Tədbir başa çatdıqdan sonra uşaqlar arasında uşaq ədəbiyyatı əsasında hazırlanmış viktorina keçirilib və qaliblər hədiyyələrlə mükafatlandırılıblar. Bilik yarışından sonra isə balaca oxuculara M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının hazırladığı "Nəğməkar bülbül" tamaşası göstərilib.

Sonda kitab sərgisinə baxış olub.

**Əli RZAYEV**

# Kəlbəcərin işğalından 23 il ötür

***23 il bundan əvvəl Azərbaycanın qədim, eyni zamanda ərazicə böyük rayonlarından olan Kəlbəcər erməni silahlı birləşmələri və onların havadarları tərəfindən işğal olunub. 1993-cü il mart ayının 27-dən aprelin 2-dək 1936 kvadratkilometr əraziyə malik olan Kəlbəcər rayonunda 130 yaşayış məntəqəsi, dünya şöhrətli "İstisu" sanatoriyası, 500-dən artıq sənaye, tikinti, məişət, ticarət obyekti, 172 mədəniyyət obyekti, 96 ümumtəhsil məktəbi, 76 səhiyyə obyekti, 1 muzey darmadağın edilib. 1993-cü ilin qiymətləri ilə Kəlbəcərə azı 761 milyon ABŞ dolları dəyərində ziyan dəyib. Məlum hadisələr zamanı 511 nəfər şəhid olub, 231 nəfər itkin düşüb.***



Təbii ki, ötən əsrin sonlarında işğal olunmuş Azərbaycan ərazilərinin hər biri, hər qarışı bizim üçün əziz və doğmadır. Kəlbəcər isə bu sırada bir çox mühüm tərəfləri ilə fərqlənir. İlk olaraq rayon ərazisi öz qədimliyi ilə seçilir. Məsələn, burada 30 min ildən çox tarixi olan qədim yaşayış məskənləri, 6 min il yaşı olan qaya təsvirləri, çöpşəkilli qədim türk əlifbası nümunələri aşkar edilib. Rayonda "Türk qəbiristanlığı" adı ilə tanınan bir neçə qədim məzarlıq var. Bunların ən böyüyü Tirkeşəvənd, Kəlbəcər, Zar və başqa kəndlərin ərazisindədir. Tədqiqatçılara görə, Kəlbəcər ərazisində ibtidai insanın təşəkkül tapması və formalaşması dördüncü geoloji dövrlə bağlıdır ki, bu da 4 milyon ildən artıq bir tarix deməkdir. Buradakı mağara düşərgələrində aparılmış arxeoloji tədqiqatlar sübut edir ki, ibtidai insan icmasının ilk əmək alətləri həm də bu yerlərdə yaradılıb. "Kəlbəcər" toponimi qədim türk dilində (oykonimin ilkin forması "Kevliçer" kimi qəbul edilib) "çay üstündə qala" deməkdir. Kevli "çayın üstü", çer/car "qala" mənasını verir. Yaşayış məntəqəsinin yerləşdiyi qayada Tərtərçay boyunca cərgə ilə düzülmüş qədim süni mağaralar mövcuddur. Buna görə də mütəxəssislər toponimi kevil/kəvl və qədim türk dillərindəki cər (qaya, yarğan) komponentləri ilə əlaqələndirirlər. Rayon ərazisindəki oronomik toponimlərin hamısı türk mənşəlidir. Bir sıra qədim türk tayfalarının adı bu gün də həmin toponimlərdə yaşayır.

Qarabağın qala qapısı adlanan Kəlbəcər ermənilərin Qarabağdan kənarda yerləşən Laçından sonra işğal etdikləri ikinci rayondur. Hamımıza məlumdur ki, digər rayonlarımız kimi, Kəlbəcər də düşmənlərin xaotik hücumu nəticəsində bir anın içində işğal olunmayıb. Bunun üçün əvvəlcədən düşünülmüş məkrli planlar və strategiya olub. Çünki Laçın rayonundan sonra Kəlbəcərin işğal edilməsi Qarabağda və ətraf ərazilərdə işğal məqsədli hücumların davamlılığı üçün mühüm əhəmiyyət kəsb edirdi. Ancaq təəssüflər olsun ki, ozamankı Azərbaycan hakimiyyətindəki biganəlik, siyasi səriştəsizlik, "kreslo davaları" düşmənin dəyirmanına su tökməkdən savayı heç nəyə yaramadı. Və Kəlbəcər başıpozuqluğun, mənəm-mənəmliyin, ümumilikdə isə xəyanətin qurbanı oldu.

Xalqımızın başına gətirilən digər soyqırımlar, işğal olunmuş ərazilərimiz kimi, Kəlbəcərin işğalına da ilk dəfə öz münasibətini bildirən, bu hadisəni kəskin pisləyən, günahkarların cəzalandırılmasını tələb edən ümummilli liderimiz Heydər Əliyev olub. Ulu öndərimiz Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi 1993-cü il aprelin 1-də keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin iclasında deyib ki, bu günlər cəbhə bölgələrindən, xüsusilə Kəlbəcərdən çox həyəcanlı xəbərlər alınır. Erməni ordusu Kəlbəcərə qarşı genişmiqyaslı hücuma keçərək bu rayonu işğal etməyə çalışır. Ulu öndərimiz Kəlbəcərə erməni hücumlarını kəskin pisləyib, ölkə rəhbərliyini rayonun müdafiəsinə çağırıb. Ancaq ozamankı hakimiyyət eşelonundan bu çağırışlara heç bir reaksiya verilməyib və Azərbaycanın bu qədim rayonu taleyin ümidinə buraxılaraq ermənilərə təslim edilib.

Xatırlatmaq yerinə düşər ki, məhz Kəlbəcər rayonunun işğalından sonra Türkiyə Cümhuriyyəti Ermənistanla sərhədini bağlayıb. Bu gün erməni lobbisinin, həmçinin bəzi maraqlı dövlətlərin etirazlarına baxmayaraq, qardaş ölkə rəsmi İrəvanla heç bir diplomatik əlaqə qurmur, sərhədlərin açılmasının yalnız Azərbaycanın işğal altında olan torpaqlarının azad edilməsindən sonra mümkün olacağını bəyan edir.

Qeyd edək ki, 1993-cü il aprelin 30-da BMT Təhlükəsizlik Şurasının 3205-ci iclasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair 822 saylı qətnamə qəbul edilib. Qətnamədə bölgədəki bütün dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət, eləcə də sərhədlərin toxunulmazlığı və ərazi əldə etmək üçün qüvvə tətbiq etməyin yolverilməzliyi bir daha təsdiq olunub. Tərəflərin BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsinin yerinə yetirilməsi və ATƏM (indiki ATƏT) çərçivəsində danışıqlar prosesinin bərpa olunması barədə Minsk qrupuna daxil olan ölkələrin nümayəndələrinin Romada işləyib hazırladığı təklifləri qəbul etdiyi bir vaxtda Ermənistan silahlı qüvvələri Azərbaycanın Ağdam və Ağdərə bölgələrində döyüş əməliyyatlarını gücləndirib.

Ermənistan silahlı qüvvələrinin ərazilərimizin, o cümlədən Kəlbəcər rayonunun işğalında iştirakı, qeyri-insani hərəkətləri və qəddarlığı beynəlxalq qurumların sənədlərində də öz əksini tapıb. Məsələn, bu işğal qeyri-hökumət təşkilatı olan "Human Rights Watch"un "Azərbaycan: Dağlıq Qarabağda münaqişənin 7 ili" (Nyu-York, 1994-cü il, səh. 67-73) məcmuəsində də təsdiq olunub. Bundan əlavə, 1998-ci ildə Ermənistanda keçirilən seçkilər zamanı səyyari səsvermə qutuları Kəlbəcər rayonunda yerləşdirilən erməni əsgərlərinin səsini toplamaq üçün Ermənistan Respublikasının dövlət sərhədindən keçirilib. Bu da ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun Ermənistanda 1998-ci il martın 16-sı və 30-da keçirilən prezident seçkilərinə dair 1998-ci il 10 aprel tarixli yekun hesabatında öz əksini tapıb.

Hazırda Kəlbəcər rayonundan olan məcburi köçkünlər Azərbaycanın 56 rayon və şəhərinin 707 yaşayış məntəqəsində yaşayır. Azərbaycan dövləti tərəfindən bu qəbildən olan insanlara hərtərəfli qayğı göstərilir, onların həyat şəraiti yaxşılaşdırılır. Mənfur ermənilər isə işğal etdikləri Kəlbəcər rayonunda BMT-nin, ATƏT-in və digər nüfuzlu beynəlxalq qurumların prinsiplərinə zidd olaraq 1999-cu ildən ermənilərin məskunlaşdırılmasına başlayıblar və bu proses indi də davam etdirilir. Və nəinki Kəlbəcər rayonunda, işğal olunmuş digər Azərbaycan ərazilərində də ermənilərin zorla məskunlaşdırılması gedir. Son dövrlərdə Yaxın Şərqdə baş verən münaqişələr nəticəsində digər ölkələrdən də ermənilərin gətirilərək tarixi Azərbaycan torpaqlarında yerləşdirilməsi ilə bağlı faktlar tez-tez eşidilməkdədir.

Erməni daşnakları hər zaman barbar, vəhşi hərəkətləri ilə seçiliblər. Bu fakt Kəlbəcərin işğalında da özünü göstərib. O vaxtlar çoxlu sayda tarixi-mədəni abidələr erməni silahlı qüvvələri tərəfindən vəhşicəsinə dağıdılıb. Rayonun Vəng kəndi ərazisində Alban məbədi, Çərəkdar kəndində Alban kilsəsi (Həsən Cəlal kilsəsi), Qanlıkənd ərazisində Lök qalası, Qaraçənli kəndində Uluxan qalası, Tərtər çayının Bulanıq çayı ilə qovşağında yerləşən Alban kilsəsi, Qalaboynu kəndində Qalaboynu qalası, Comərd kəndində Comərd qalası, Camışlı kəndində Keşikçi qalası, Kəlbəcər şəhərində, Başlıbel kəndində, Otaqlı kəndində məscidlər, Soyuqbulaq kəndində Tərtər çayı üzərindəki Tağlıdaş körpüsü, Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi, Aşıq Şəmşir adına Mədəniyyət Evi, Söyüdlü yaylağında Seyid Əsədullanın ziyarətgahı erməni vandalları tərəfindən dağıdılıb. Kəlbəcərə dünya şöhrəti qazandırmış Yuxarı İstisu, Aşağı İstisu, Keşdək, Qarasu, Tutxun, Mozçay, Qoturlusu kimi çox böyük müalicə-balneoloji təsirə malik mineral su yataqları da bu gün düşmən əsirliyində qalmaqdadır.

Tarixdə müharibələr, işğallar çox olub. Təbii ki, müharibənin və yaxud adi bir döyüşün öz qaydaları var. Bu qaydalara görə düşmənə nifrət etmək, onu öldürmək, ərazisini işğal etmək mümkündür. Ancaq hər hansı bir tikiliyə və yaxud adi bir daş parçasına vəhşicəsinə davranmaq dünyada yalnız ermənilərin işidir. Bu gün istər Kəlbəcərdə, istərsə də digər işğal altında olan rayonlarımızda azərbaycanlılara məxsus abidələrin böyük əksəriyyəti dağıdılıb, hətta qəbir daşları belə, parçalanaraq məhv edilib. Bu da onun göstəricisidir ki, vandalizm erməni daşnaklarının həyat tərzidir.

Ancaq Azərbaycanın bu işğal faktlarına daha bir neçə illər dözəcəyi mümkün deyil. Artıq Azərbaycan gündən-günə güclənən iqtisadiyyatı, ordusu, siyasi və beynəlxalq nüfuzu sayəsində problemi həll etmək gücündədir. Sadəcə, dövlətimizin bu sahədə əldə etməyə çalışdığı problemin sülh yolu ilə həll olunmasına nail olmaqdır. Ümummilli liderimiz də Kəlbəcərin işğaldan azad olunacağını bildirir və deyirdi ki: ***"Kəlbəcər həm təbii sərvətlərlə zənginliyinə görə, həm iqliminin gözəlliyinə görə, həm də orada yaşayan insanların fədakarlığına görə respublikada həmişə çox hörmətə, ehtirama layiq olubdur. Kəlbəcər Azərbaycanın ayrılmaz bir parçasıdır, hissəsidir. Heç şübhəsiz, o gün gələcək ki, Kəlbəcər rayonu Ermənistanın silahlı qüvvələrinin işğalından azad olacaq və Kəlbəcərin sakinləri, bizim soydaşlarımız öz yerlərinə, yurdlarına qayıdacaqlar".***

**Səbuhi HƏSƏNOV**

## İşaxtaran vətəndaşların nəzərinə!

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti kənd xidmət mərkəzlərində mövcud olan vakansiyaların kadrlarla təmin edilməsi üçün Naxçıvan Regional Peşə Tədris Mərkəzində qadın bərbəri, bərbər və dərzi peşələri üzrə kurslar təşkil edir.

Tədrisin müddəti qadın bərbəri və bərbər kursunda 2, dərzi kursunda isə 3 aydır. Tələbat aşağıdakı kimidir:

| | Kəndin adı | Vakant yer | | |
|---|---|---|---|---|
| | | Qadın bərbəri | Bərbər | Dərzi |
| | *Naxçıvan şəhəri üzrə* | | | |
| 1. | Qaraçuq | 2 | - | - |
| | **Cəmi:** | **2** | **-** | **-** |
| | *Şərur rayonu üzrə* | | | |
| 1. | Muğancıq-Mehrab | 1 | - | - |
| 2. | Qarxun | 1 | - | 1 |
| 3. | Yuxarı Aralıq | - | 1 | 1 |
| 4. | Püsyan | 2 | 2 | - |
| 5. | Xanlıqlar | 1 | 1 | - |
| 6. | Aşağı Daşarx | 1 | - | - |
| 7. | Danyeri | 1 | 1 | 1 |
| 8. | Çomaxtur | 1 | - | - |
| 9. | Diyadin | - | 1 | - |
| 10. | Axura | 1 | - | - |
| 11. | Aşağı Yaycı | 1 | - | 1 |
| 12. | Şahbulaq | - | 1 | - |
| 13. | Mahmudkənd | 1 | - | - |
| 14. | Cəlilkənd | - | 1 | 1 |
| 15. | Qorçulu | 1 | - | - |
| 16. | Yengicə | 2 | - | - |
| 17. | Yuxarı Daşarx | 1 | 1 | - |
| 18. | Sərxanlı | 1 | - | - |
| 19. | Dəmirçi | 1 | - | - |
| | **Cəmi:** | **17** | **9** | **5** |
| | *Babək rayonu üzrə* | | | |
| 1. | Cəhri | - | - | 1 |
| 2. | Qahab | 2 | 1 | - |
| 3. | Kərimbəyli | - | 1 | - |
| 4. | Şıxmahmud | 1 | - | - |
| | **Cəmi:** | **3** | **2** | **1** |
| | *Ordubad rayonu üzrə* | | | |
| 1. | Nəsirvaz | 1 | 1 | - |
| 2. | Nürgüt | 1 | 1 | - |
| 3. | Xurs | - | 1 | - |
| 4. | Bist | 1 | 1 | - |
| 5. | Behrud | 1 | - | - |
| 6. | Parağa | - | 1 | - |
| 7. | Çənnəb | 1 | - | - |
| 8. | Yuxarı Əylis | 1 | - | - |
| 9. | Ələhi | - | 1 | - |
| | **Cəmi:** | **6** | **6** | **-** |
| | *Culfa rayonu üzrə* | | | |
| 1. | Ləkətağ | 1 | - | - |
| 2. | Teyvaz | 1 | - | - |
| 3. | Boyəhməd | - | 1 | - |
| 4. | Gal | - | 1 | - |
| 5. | Bənəniyar | 1 | - | - |
| | **Cəmi:** | **3** | **2** | **-** |
| | *Şahbuz rayonu üzrə* | | | |
| 1. | Sələsüz | 1 | 1 | - |
| 2. | Badamlı | - | 1 | 1 |
| 3. | Keçili | 1 | - | - |
| 4. | Nursu | 1 | 1 | - |
| 5. | Kolanı | - | 1 | 1 |
| 6. | Ayrınc | - | 1 | - |
| 7. | Kükü | 1 | - | - |
| 8. | Güney Qışlaq | 1 | - | - |
| 9. | Qızıl Qışlaq | 1 | 1 | - |
| 10. | Gömür | 1 | - | - |
| 11. | Biçənək | - | 1 | 1 |
| | **Cəmi:** | **7** | **7** | **3** |
| | *Kəngərli rayonu üzrə* | | | |
| 1. | Qarabağlar | 2 | - | - |
| 2. | Çalxanqala | 1 | - | 1 |
| 3. | Təzəkənd | - | 1 | - |
| 4. | Xok | 2 | 2 | - |
| 5. | Qabıllı | 1 | - | - |
| 6. | Şahtaxtı | 2 | - | 1 |
| 7. | Yeni Kərki | 1 | - | - |
| | **Cəmi:** | **9** | **3** | **2** |
| | **Sədərək rayonu üzrə** | | | |
| 1. | Heydərabad qəsəbəsi | - | 1 | - |
| | **Cəmi:** | **-** | **1** | **-** |

Əqli və fiziki potensialları qadın bərbəri, bərbər və dərzi peşələri üzrə çalışmağa uyğun olan sağlamlıq imkanları məhdud şəxslər də müraciət edə bilərlər. Kursu müvəffəqiyyətlə bitirənlər qeyd olunan vakansiyalar üzrə işlə təmin olunacaqlar. Peşə hazırlığı kursunda iştirak etmək istəyənlər tələb olunan aşağıdakı sənədləri yaşadıqları ərazi üzrə məşğulluq mərkəzlərinə təqdim edə bilərlər.

*1. Yaşayış yerindən arayış*
*2. Şəxsiyyət vəsiqəsinin surəti*
*3. Tibbi yoxlama haqqında arayış.*

**Əlaqə telefonu: 545-32-33**

## Zəka sahibləri güclərini sınayıblar

Şahbuz Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə rayon ümumtəhsil məktəblərinin şagirdləri arasında şahmat turniri keçirilib. Turnirdə 30 zəka sahibi İsveçrə sistemi üzrə mübarizə aparıb. Gərgin keçən mübarizənin sonunda bütün rəqiblərinə qalib gələn Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin şagirdi Nuray Quluzadə 5 xalla qalib adını qazanıb. Digər iki pillədə Yuxarı Qışlaq kənd tam orta məktəbinin şagirdi Hüseyn Hüseynli və Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin şagirdi Tuncay Məmmədli qərarlaşıblar.

Qalib şahmatçılara diplomlar təqdim olunub.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 254